

# MİLLİ BİRLİYİN TARİXİ QARANTI

Siyasi Lider olaraq Heydər Əliyevin adı yaddaşımda nə vaxt baş qaldırırsa, hansı səbəbdənsə onu xatırlayıramsa, həmin andaca gözlərimin önündə 90-cı illərin əvvəlləri canlanır.

Yaddaşımda baxdığım qorxulu kinonun dəhşətli kadrlarında vahimə, qarışıqlıq, çaxnaşma, başıpozuqluq... daha nə bilim, nələr canlanır.

Vətəndaş sülhü yoxdur, milli birlik yoxdur, iqtisadiyyat çöküb, xalqı xoşbəxtliyə çatdıracaqlarına təntənəli vədlər verənlərin hərəsi bir tərəfə qaçıb. Hərbi müxalifət baş qaldırıb. Siyasi müxalifətin içərisindən separatçılar peyda olur. İndi təkcə Ermənistan tərəfdən yox, Dağlıq Qarabağtərəfdən yox, ölkənin şimalından və cənubundan da təhdidlər var.

Mənəvi cəhətdən iflasa uğramış siyasi hakimiyyətin və iqtisadi qurumların xarabalıqları üzərində Heydər Əliyev bütün əzəməti ilə göründü. Onun yeganə silahı xalqa inamı idi. O, bütün həqiqətləri çılpaqlığı ilə insanlara çatdırmaq yolu seçdi. Didərginliyin, qaçqınlığın, işsizliyin, bir sözlə, iqtisadi çöküşün mənzərəsində o, insanları bir-birini başa düşməyə çağırdı. Əvvəlcə,vətəndaş sülhü yaratdı, sonra milli birliyi təmin etdi...

Heydər Əliyevin əsas ideoloji zəmini azərbaycançılıq idi. Bu gün də əlinə qələm alan söz adamları onun obrazını elə bu əmində yaratmağa cəhd göstərirlər. Çünki onun müstəqillik uğrunda mübarizəsi möhtəşəm tarixi qələbə ilə nəticələndi.

Şair Ədalət Bədirxanlının “Gül bayramı” poeması ona sözadamlarının sevgisinin təzahürü kimi yaranıb. Biz onun misralara çevirdiyi Heydər Əliyev çağırışlarının əsərdəki səmimiyyətini görürük: “Nə vaxt ki, siyasət zəfər çalacaq, O zaman işğalçı naçar qalacaq”. Əsərin geniş təhlilinə lüzum görmürük, çünki əsas söz oxucunundur.

Qəlbimizdə bir işıq var - həyatını mübarizələrdə yaşamış olan insanın işığı...

Bu işıq vətəndaş sülhünün və milli birliyin əbədi qarantıdır!

*03.05.2021*

Kredo 2021.- 5 may.- S.1.